*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 132-136* *ISSN: 2663-4406*

*Romantizm mərhələsi*

**UOT:** 071(091)

Sevil Həsənova*

# HÜSEYN CAVİDİN ROMANTİKLƏRƏ VƏ REALİSTLƏRƏ MÜNASİBƏTİ

***Xülasə***

XX əsrin əvvəllərində Azərbaycanda iki ədəbi məktəb yarandı və formalaşmağa başladı: romantizm və realizm. Bu məktəblər Azərbaycan ədəbiyyatı və mediyasına bir çox yeniliklər gətirmiş və onu zənginləşdirmişdir. H.Cavid romantizm məktəbinin nümayəndələrindən biri olmuşdur. Turançılıq ideyası H.Cavidin fəlsəfi-siyasi görüşlərində xüsusi yer tutmuşdur. Romantizmin digər nümayəndələri kimi, H.Cavid realizm ədəbi məktəbinin nümayəndələrinə, xüsusilə Məmmədquluzadənin yaradıcılığı və şəxsiyyətinə böyük hörmət bəsləyirdi. O, Mirzə Cəlilin "Ölülər" əsərini yüksək qiymətləndirmiş və "Açıq söz" qəzeti və "Tuti" jurnalında bu əsər haqqında məqalə dərc etdirmişdir. H.Cavid deyir: "Ölülər" əsərində bir canlılıq və incəlik var." O, əsər haqqında çox dəyərli fikirlər irəli sürmüşdür. Xalqı azadlıq, müstəqillik uğrunda mübarizə aparmağa səsləyən hər iki ədəbi məktəbin nümayəndələri ilk növbədə, təhsil, elm və mədəniyyətin təbliğatını aparmış və Azərbaycan xalqının milli dirçəlişi üçün müstəsna xidmətlər göstərmişdir.

**Açar sözlər:** romantizm, ədəbi proses, realistlərə münasibət, turanizm, Azərbaycan romantizmi, ədəbi cərəyan, milli mənəviyyat və milli təfəkkür

## H.JAVID'S ATTITUDE TO THE REPRESENTATIVES OF ROMANTICISM AND REALISM

***Summary***

At the beginning of the XX century two literary schools were created and formed in Azerbaijan; they were: romanticism and realism. They brought a lot of innovations to the Azerbaijani literature, press and enriched it. H.Javid was one of the representatives of the school of romanticism. The idea of turanism occupies an important place in H.Javid's philosophical and political views. Like other representatives of romanticism, H.Javid had great respect for representatives of the literary school of realism, especially for Mammadguluzadeh's creativity and personality. He highly appreciated M.Jalil's work of "The Dead" and published an article about it in the newspaper "Achygsoz" and in the magazine "Tuti". H.Javid said: "There is a vitality and subtlety in "The Dead". He expressed very valuable ideas about the work. Representatives of both literary schools, which called on the people to fight for freedom and independence, primarily propagandized education, science and culture and rendered exceptional services in the national revival of the Azerbaijani people.

**Key words:** romanticism, literary process, attitude to realists, turanism, romanticism of Azerbaijan, literary movement, national spirit and national thought

## ОТНОШЕНИЕ Г.ДЖАВИДА К ПРЕДСТАВИТЕЛЯМ РОМАНТИЗМА И РЕАЛИЗМА

***Резюме***

В начале XX века в Азербайджане были созданы и сформированы две литературные школы: романтизм и реализм. Они принесли много нововведений в азербайджанскую литературу, прессу и обогатили ее. Одним из представителей школы романтизма был Г.Джавид, в философско-политических взглядах которого идея тура-

* Bakı Dövlət Universiteti. Filologiya üzrə fəlsəfə doktoru. E-mail: frauhadschieva@gmail.com

низма занимает важное место. Как и другие представители романтизма, Г.Джавид с большим уважением относился к представителям литературной школы реализма, особенно к творчеству и личности Джалила Мамедкулизаде. Он высоко оценивал произведение «Мертвецы» М.Джалила и опубликовал об этом статью в газете «Ачыг соз» и в журнале «Тути». «В «Мертвецах» имеется жизненная сила, тонкость», – сказал Г.Джавид. Он высказал очень ценные идеи о произведении. Представители обеих литературных школ, которые призывали народ к борьбе за свободу и независимость, в первую очередь пропагандировали образование, науку и культуру и оказали исключительные заслуги в национальном возрождении азербайджанского народа.

**Ключевые слова:** романтизм, литературный процесс, отношение к реалистам, туранизм, азербайджанский романтизм, литературное движение, национальный дух, национальная мысль

**Giriş.** Məqsəd Hüseyn Cavidin romantiklərə və realistlərə münasibətini yeni metodoloji və ideoloji baxımdan elmi ictimaiyyətin diqqətinə çatdırmaqdır. Romantik ədəbi məktəbin görkəmli nümayəndəsi, filosof-şair, dramaturq, publisist Hüseyn Cavidin həyatı, fəaliyyəti, yaradıcılığı, elmi-nəzəri görüşləri həmişə Azərbaycan cəmiyyətinin diqqət mərkəzində olub və olmaqdadır. H.Cavid dərin fəlsəfi-estetik məzmuna malik yaradıcılığı ilə ədəbiyyatımızda yeni bir mərhələnin başlanğıcını qoymuşdur.

Əksər tədqiqatçılar bu fikirdədirlər ki, 20-ci yüzilliyin mətbuatı çox zəngin, rəngarəng olsa da, ədəbi məktəb səviyyəsinə "Molla Nəsrəddin" və "Füyuzat" yüksələ bilib. "Bir tərəfdən Mirzə Cəlil, Sabir və onların məslək dostları, digər tərəfdə isə Əli bəy Hüseynzadə, Məhəmməd Hadi, Hüseyn Cavid yetişərək" [1, s.4] xalqı milli oyanışa səslədi. "Azəri türklərinin milli haqlarının aynası" (A.Şaiq) olan "Füyuzat" Ə.Hüseynzadənin arzusu ilə "Bən istərdim ki, öylə bir sehr və ya əfsun bulunsun ki, onun qüvvətilə "bütün millətimizi birdən-birə cəmi füyuzati-vicdaniyyəyə nail etmək mümkün olsun" [2, s.29].

Romantizmin əsas məqsədi şəxsiyyətin azadlığına, azad iradə və düşüncəyə diqqət çəkmək olmuşdu. Azərbaycan romantizmini araşdırarkən belə bəlli olur ki, Azərbaycan romantikləri əsasən türkçülüyə meyil etmişlər. Odur ki, bu romantizmin idealında vətənpərvərlik, millətçilik, həm də turançılıq daha qabarıq şəkildə verilirdi. Əsasən də füyuzatçılar və sonralar onların yolunu davam etdirən yazarlar bu yolda fərqlənmişdilər. Məsələn, M.Hadi, H.Cavid, A.Səhhət, A.Sur və başqa yazarların yaradıcılığında azadlıq ideyaları daha çox tərənnüm edilirdi. Məsələn, A.Səhhət "Mən vətəni canım kimi sevirəm" deyirdisə, H.Cavid "Haqqını sən mübarizə ilə alarsan" söyləyirdi. "Mənim tanrım gözəllikdir, sevgidir", – deyə bütün bəşəriyyəti sülhə, sevgiyə səsləyən H.Cavid də bütün romantiklər kimi xalqını maarifə, ittihada, hürriyyətə doğru istiqamətləndirirdi.

Burada ədibin uzun illər tədqiqatdan kənarda qalan, unudulan və bu mövzuya həsr edilən ədəbi-tənqidi məqalələri obyektiv şəkildə şərh edilib. Çünki, uzun illər ədibin yaradıcılığına yanaşma tərzi marksist-leninçi ideologiya və metodologiyaya uyğun olub. H.Cavid realist ədəbi məktəbin nümayəndələrinə, xüsusən də dahi Mirzə Cəlil yaradıcılığına və şəxsiyyətinə çox böyük hörmətlə yanaşıb. Bildiyimiz kimi, 1916-cı ildə ilk dəfə Bakıda M.Cəlilin "Ölülər" pyesi tamaşaya qoyulur. Tamaşaya baxan H.Cavid əsəri və müəllifi yüksək qiymətləndirərək təəssüratını belə qələmə alır: "Ölülər" son komediyalarımız içində parlaq bir mövqe tutur. "Ölülər"də sənətkaranə bir dirilik, mahiranə bir incəlik var. "Ölülər"in hər təbəssümündə acı bir fəryad qopar" [3].

Bu məqaləni oxuyarkən hiss olunur ki, publisistin "ədəbiyyat və həyat" probleminə baxışı xüsusi bir anlamdır. "Ölülər"i həyatı əks etdirib acı bir fəryad qopardığına" [3] görə yüksək qiymətləndirən müəllifdə əsər o qədər yaxşı təəssürat oyadır ki, o, bu mövzuda "Tuti" jurnalının 7 may 1916-cı sayında da çıxış edərək əsər və tamaşa haqqında xoş sözlərini bildirir.

1917-ci ildə M.Cəlil "Cümhuriyyət" məqaləsində hürriyyətdən yazdığı bir vaxt, H.Cavid də 1917-ci ildə "Şeyda" pyesində "İştə səadət günəşi parlayır, hürriyyət pərisi gülümsəyir", – deyirdi. Deməli, hər iki əqidə sahibi, fikir mücahidi azadlığı, hürriyyəti, demokratiyanı öz əsərlərində təbliğ edirdilər.

“Füyuzat”çılar arasında da məfkurə baxımından bir-birinə daha çox yaxın olan da elə M.Hadi və H.Cavid olub. Hətta illər sonra sovet dövründə tənqidçi M.K.Ələkbərli “Aprel ədəbiyyatı” məqaləsində bu fikri vurğulayır: “Hüseyn Cavid və Məhəmməd Hadi də bu məktəbin məhsuludurlar. Ancaq bunların, xüsusilə şura yazıçıları sırasında duran Cavidin yaradıcılığını “Füyuzat” xətti-hərəkətilə müəyyənləşdirmək doğru olmaz. Eyni zamanda o əsasdan çıxdıqlarını və yaradıcılıqlarında bu xəttin göründüyünü də inkar etmək olmaz” [4, s.16-17]. Cavidşünas M.Cəfər yazırdı: “H.Cavidin də əsas yaradıcılıq ideyaları, baş mövzusu, ruhu, məzmunu etibarı ilə M.Hadiyə çox yaxın idi. Buna görə də bu iki sənətkar axıra qədər romantik üsluba meyil göstərmişlər” [5, s.30].

“Füyuzat”da cəmi bir dəfə çıxış edən H.Cavid füyuzatçılıq ideologiyasını davam etdirən “Şəlalə”, “İqbal”, “Tərəqqi”, “İttifaq”, “Həqiqət”, “Açıq söz”, “Qurtuluş”, “Bəsirət” və “İstiqlal” kimi demokratik ideyaların təbliğatçısı olan mətbu orqanları ilə sıx əməkdaşlıq edib. Bu mətbuat orqanlarında H.Cavidin pyesləri, şeirləri ilə yanaşı, publisistik məqalələri də çap olunub. Bütövlükdə H.Cavid “yaradıcılığında Şərq və Qərbin mədəni, mənəvi-əxlaqi dəyərləri türkün düşüncə müstəvisində gəlişib, sintezə uğrayıb, təhlilə çəkilib, tədqiq edilir” [6].

H.Cavid üçün vətən anlayışı Azərbaycanla məhdudlaşmırdı, o, Turanı Böyük Türk dünyasının vətəni sanırdı. Lakin “Cavid romantizminin dalğaları bəzən Turana sığmır, onun hüdudlarını aşaraq Şərq-islam dünyasına və bütün yer kürəsinə yayılır. Bu isə onun bəşəriliyini şərtləndirir” [7, s.311].

Mətbuatşünas alim, prof. Ş.Vəliyev “Şəlalə”ni “Azərbaycan Xalq Cümhuriyyətinə doğru aparan yolun ən qiymətli abidəsi” [8, s.212, 264] adlandıraraq 20-ci yüzilliyin əvvəllərindəki fəaliyyətini belə qiymətləndirir: “Füyuzat” ədəbiyyat tariximizdə “feyzlər mənbəyi” adını şərəflə yerinə yetirmişdisə, bu mənbədən alınan ideya-bədii və nəzəri-estetik qidanı öz fəaliyyəti ilə daha da təkmilləşdirən “Şəlalə”çilər sözün geniş mənasında ikinci onillikdə ədəbi hərəkatda şəlalə axını yaratmağa nail ola bildilər” [8, s.274].

Jurnalda romantiklərin ən fəal üzvlərindən M.Ə.Rəsulzadə, M.Hadi, A.Səhhət, A.Şaiq, H.Cavid və S.Hüseynin şeirləri, məqalələri ilə yanaşı, bəzilərinin ədəbi-tənqidi diskussiyaları da çap olunub. Onlardan biri də dövri mətbuatda mübahisələrə səbəb olan H.Cavidin “Sevinmə, gülmə, quzum!” adlı şeiridir. “Şəlalə”nin redaktorunun H.Cavidin bu şeirinə mənasız müdaxiləsi və sonra da özünə haqq qazandırması ədibin etirazına səbəb olur.

X.X.Səbribəyzadənin “İqbal”ın 17 mart 1913-cü il tarixli sayında “Açıq cavab” sərlövhəli “Hüseyn Cavid Əfəndiyə...” məktubu verilib. Məzmunca çox uzun olan bu məktubda “Şəlalə”nin redaktoru şairin şeirinə müdaxiləsində haqlı olduğunu cidd-cəhdlə oxucusuna inandırmağa çalışır.

H.Cavid də öz fikir və ədəbi mülahizələrini məktub və cavab formasında bildirərək, burada da klassik üsluba sadiq qalmışdır. (Məsələn, M.F.Axundovun “Əkinçi” qəzeti haqqında H.Zərdabiyə məktubları, F.Köçərlinin, M.Cəlilin, M.Ə. Sabirin, A.Şaiqin və başqalarının dövrün digər ziyalılarına məktubları). Bu həm də ondan irəli gəlirdi ki, dövrün ziyalıları bu məsələlərə daha ciddi yanaşmış və ədəbi əməkdaşlıq etmiş, fikirlərini ədəbi mübahisələrlə bildirmişlər.

Ədib də bu məsələyə münasibətini “İqbal” qəzetində “Cavablara cavab, yaxud ikinci rica” adlı publisistik məqaləsində belə bildirirdi: “Tənqidin üslubu o deyildir ki, başqasının kəlamını başqa şəklə salıb nəşr etsin; münərrid borcludur ki, tənqid etmək istədiyi kəlamı eynən dərc etdikdən sonra öz mülahizələrini əlavə eləsin. Şimdilik bizim etiraz edəcəyimiz bir şey varsa, o da öz mühitimiz, bilxassə Türkiyədə hənuz tənqidin nə olduğu anlaşılmamasıdır. Artıq sözümü bitirib, möhtərəm “Şəlalə”nin və usanmış qarelərinin əfvini isterham edirəm”, – deməklə, bu mübahisənin nəzakət və hörmətlə bağlanmasına xitam verir [9].

Ədibin o zamankı dövri mətbuatda ədəbi tənqidə məruz qalan ikinci şeiri İstanbulda oxuyarkən qələmə aldığı və “İqbal” qəzetində çap olunan (28 mart 1914) “Pəmbə çarşaf” şeiridir. Şeirdə çadranın gözəlliyini tərənnüm edən şair təhsilini başa vurub vətənə qayıtdıqdan sonra “Qadın” şeirini yazaraq çadranı “zülmət pərdəsi” adlandırmışdı.

Ədibin yaradıcılığına qarşı çox tələbkar olduğunu söyləyən Q.Məmmədli xatirələrində yazırdı: “Cavid özünə inanırdı. Ədəbi mübahisələrdə, mühakimələrdə onu tənqid edərkən əsasına dirsək-

lənib sakit-sakit danışanlara qulaq asardı. Yerindən dillənsin, danışsın, cavab versin, çıxış etsin-belə şeylər ona yad idi. Bütün bunlara çox sakit, soyuqqanlıqla qulaq asardı. Çünki özünə qarşı çox tələbkar sənətkar idi. Cavid daim axtarırdı, həmişə özü-özü ilə mücadilə və mübarizədə idi. Cavid öz yaradıcılığında yenilik sevən, mütərəqqi sənətkar idi. O, nəinki hər əsərini, hətta məqalələrini, şeirlərini də dönə-dönə məhək daşından keçirdikdən sonra üzə çıxarardı" [10].

Deməli, H.Cavidə qarşı ilk qərəzli tənqid "Şəlalə"nin redaktoru tərəfindən edilmişdir. Bu qərəzli çıxışa dövrün ədəbi tənqidçisi Seyid Hüseynin münasibətinin daha kəskin olması X.X.Səbribəyzadənin qəzəbinə düçar olur və "sən mürəttibsən" deməsi nəticəsində S.Hüseyn "İqbal"da ona belə bir cavab verib:

"Cavidin necə alicənab, nasıl nəzakətli bir mühərrir olduğunu kəsdirərsiniz, zənn edirəm. Böylə ədib bir kəsə öylə dürüst cavab verən bir hərifin mənə qarşı "sən mürəttibsən" deməsi bir o qədər də təəccüblü bir nəsə deyil, əfəndim. Müdir əfəndi demişkən bu kimi həriflərin cavabı sükutdur…" [11, s.65-66].

Gənc şair Əhməd Cavad isə redaktoru təkcə H.Cavidə deyil, ümumiyyətlə, yaradıcılığa qarşı məsuliyyətsizlikdə günahlandırırdı: "...Sizin yazınızda, fikrinizdə "eski"likdən çox bir "başqa"lıq var. Siz müstəsna bir məxluqə bənzəyirsiniz... Düşünüb yazmaq əlindən gəlməyən qələminiz, doğrudan da "altun"danmı, yoxsa İstanbuldakı o eskifikirli, dargözlü qələm arkadaşlarınız tərəfindən hədiyyə olunan həzrəti Nuh qələmlərindənmidir? Burası mənim ən çox maraq etdiyim bir nüqtədir" [11, s.67].

H.Cavid yaradıcılığına müdaxilənin əleyhinə olan tədqiqatçı alim Ə.Sultanlı illər sonra yazırdı: "H.Cavid orijinal təbiətə malik bir şair idi. Onun bir misrasını silmək, başqa bir misra ilə əvəz etmək mümkün deyildi, hətta dilinin imlasını dəyişdirmək belə böyük cəsarət tələb edirdi" [12, s.86]. Təbii ki, bunlar ədibin sənətkar ilə yaradıcılıq haqqında olan görüşlərindən irəli gəlirdi.

**Nəticə.** Burada elmi araşdırmaların, ümumiləşdirmələrin nəticəsi cavidşünaslıq tarixinin digər mərhələlərinin öyrənilməsində, ədəbiyyatşünaslıq və cavidşünaslıq tarixinə dair hazırlanan elmi əsərlərdə istifadə oluna bilər.

Azərbaycan romantik ədəbi məktəbin nümayəndəsi olan H.Cavidin ədəbiyyatımızda, mətbuatımızda, istiqlal tariximizin təbliğində xüsusi rolu, mövqeyi olan ədəbi irsi hər zaman aktualdır və əhəmiyyətlidir. Ona görə də bu zəngin irsi daha da ətraflı öyrənməli, elmi tədqiqatlar səmərəli və müntəzəm aparılmalı, intensiv şəkildə araşdırılmalı, gələcək nəsillərə çatdırılmalıdır.

Ən önəmli məsələlərdən biri dəyişkən siyasi-sosial tarixi mərhələdə yaşayıb-yaradan, keçid dövrlərinin mürəkkəbliyi ilə qarşılaşan bu sənətkarın əsərlərinin orta və ali məktəblərdə əvvəllər kifayət qədər əhatə olunmaması gənc nəsli bu zəngin irsdən uzaq salmışdı.

Sonda bir daha belə nəticəyə gəlirik ki, bəşərin əhvalını, millətin istiqbalını və istiqlalını düşünən, milli-məfkurəvi məsələlərdə dürüst qənaətlərə gələn mütəfəkkir sənətkarın yaradıcılığı, türk birliyi ideyasını, islam əxlaqını ehtiva edən, mükəmməl ədəbi-bədii sərvətlər toplusudur. Odur ki, Cavid yaradıcılığı cəmiyyəti xilas edə biləcək məfkurə modelini irəli sürən ədəbi və siyasi hadisədir.

**ƏDƏBİYYAT**


1. Füyuzat (1906-1907). Bakı, "Çaşıoğlu", 2007.
2. Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı, "Sabah", 1996.
3. Cavid H. Ölülər. "Açıq söz" qəzeti, 1916, 1 may.
4. Ələkbərli M. Aprel ədəbiyyatı. "İnqilab və mədəniyyət" jurnalı, 1935, № 10-12.
5. Məmməd C. Azərbaycan ədəbiyyatında romantizm. Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1963.
6. "Azərbaycan" jurnalı, 2006, № 6.
7. Cavidşünaslıq. I cild (araşdırmalar toplusu). Bakı, "Elm", 2005.
8. Vəliyev Ş. "Füyuzat" ədəbi məktəbi. Bakı, "Elm və təhsil", 2004.
9. Cavid H. İttifaq məktəbinə bir nəzər. "İqbal" qəzeti, 1914, 31 avqust.

10. Məmmədli Q. "Maral"ın ilk variantı (H.Cavidin naməlum şeiri). "Ədəbiyyat və incəsənət" qəzeti, 1980, 25 iyul.
11. Məmmədli Q. Cavid ömrü boyu. Bakı, "Yazıçı", 1982.
12. Cavidi xatırlarkən. Məqalələr toplusu. Bakı, "Gənclik", 1982.